Food and Agriculture Organization of the United Nations

# SÜDLÜK MAL-QARADA ANTİBİOTİKDƏN İSTİFADƏNİ NECƏ AZALTMAQ OLAR?



Mövcud içməli su, kölgə, səssizlik  və yaxşı havalandırma istilik stressini, mastiti, tənəffüs problemlərini və digər sağlamlıq problemlərini azaltmaqla, süd istehsalını yaxşılaşdırmağa kömək edə bilər.

Xəstəliklər sıx yerlərdə daha asan yayılır; heyvan başına kifayət qədər yer ayırın. Tövlədə inək başına orta hesabla 4,5-5,5 m2 sahə tələb olunur.





Peyvənd bəzi xəstəliklərin qarşısının alınmasında antibiotiklərə etibarlı alternativdir. Peyvənd təqviminizə əməl etdiyinizdən əmin olun.

Hərtərəfli biotəhlükəsizlik proqramına riayət etmək xəstəliyin yaranmasını azaldacaqdır.





Palçıq və peyin xəstəliklərin yaranması üçün münbit mühitdir. Quru ot, kəpək və ya yonqar kimi döşəmədən istifadə edin, mastit, axsaqlıq və tənəffüs xəstəliklərinin yaranmasını azaltmaq üçün döşəməni təmiz və quru saxlayın və tez -tez yeniləyin.

Qurutma dövründə inəklərin düzgün idarə edilməsi infeksiyaların qarşısını ala bilər və laktasiyaya müsbət təsir göstərə bilər.





Süd keyfiyyəti və yelin sağlamlığı sağım təcrübəsindən çox asılıdır. Sağımdan əvvəl əmcəkləri və əllərinizi təmizləyin və dezinfeksiya edin. Təmiz sağım avadanlığından və geyimlərdən istifadə edin. Bu, mastitin yayılmasını azaldacaqdır.

Xəstəliyə daha yaxşı müqavimət göstərmək üçün doğuşdan sonra ilk 4 saat ərzində buzovu ən az 3 litr kolostrumla bəsləyin. Sonrakı 4 saat ərzində əlavə 2 litr tələb olunur.





Yüksək məhsul verən bir çox cins xəstəliklərə qarşı daha həssasdır. Mümkün olarsa, istehsal mühitinizə uyğun cins seçin.

Heyvanları kifayət qədər zülal, enerji və liflə təmin etmək üçün düzgün və balanslaşdırılmış qidalanma ilə bağlı ən son yeniliklərdən xəbərdar olun.
Bu, heyvanlarınızın sağlamlığını qorumağa və stressi azaltmağa kömək edə bilər.





SÜD İSTEHSALINDA ANTİBİOTİKLƏRDƏN SƏMƏRƏLİ VƏ MƏSULİYYƏTLƏ NECƏ İSTİFADƏ ETMƏYİNİZ HAQQINDA DAHA ÇOX MƏLUMAT ÜÇÜN SKAN EDİN

BY NC SA

© FAO, 2022
CB6806AZ/1/02.22